# MİLLİ AZƏRBAYCAN TARİXİ MÜZEYİNİN KOLLEKSİYALARINDA

*Milli Elmlər Akademiyası təkcə elmi təfəkkür mərkəzi deyil, həmçinin Azərbaycan alimlər ordusunu yetişdirən ocaqdır.*
**Akademik Nailə VƏLİXANLI.**

***Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi qeyd olunur. Uzun illər ərzində ölkənin baş elmi qurumu olan bu məbəd şərəfli inkişaf yolu keçmiş, görkəmli alimləri, elmi nailiyyətləri ilə Azərbaycanın ictimai, iqtisadi, mədəni həyatında mühüm rol oynamışdır.***












Bünövrəsi hələ 1923-cü ildə yaradılan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (ATTC) ilə qoyulmuşdur. Daha sonralar Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu (1929-cu il), SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsi (1932-ci il), SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı (1935-ci il) və, nəhayət, Azərbaycan SSR Elmlər Akademiyası (1945-ci il) yaradılmışdır.

Akademiyaya aid müxtəlif səpkili materiallar respublikamızın bir çox arxiv, muzey, kitabxana və s. müəssisələrində qorunub saxlanılır. Bu müəssisələrdən biri də uzun illər AMEA-nın tərkibində fəaliyyət göstərmiş, 2022-ci ilin iyulunda isə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyinə keçmiş Milli Azərbaycan Tarixi Muzeyidir (MATM).

Muzeydə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətinə dair demək olar ki, cəmi 5 material qorunur. Bu, ATTC-nin sədri Əbdürrəhim bəy Haqverdiyevin orijinal portreti, Cəmiyyətdə tərtib edilən Azərbaycan SSR-də maddi mədəniyyət üzrə etnoqrafik materialların toplanması proqramı (ekspozisiyada nümayiş etdirilir) və rus dilində 3 nəşrdir: ATTC-nin Tarix və Etnoqrafiya bölməsinin 1925-ci il iyulun 28-də keçirilən iclasında Y.Paxomovun çıxış etdiyi «Azərbaycanda əmlak-torpaq məsələsinə dair» adlı məruzə (1926), professor B.Millerin tərtib etdiyi «Tatlar, onların məskunlaşdırılması və şivələri (materiallar və məsələlər)» adlı kitabça (1929) və Y.Zevakinin «Azərbaycan XVIII əsrin əvvəllərində» kitabçasıdır (1929).

Sonrakı dövrlərə aid isə MATM-da AMEA-nın həqiqi və müxbir üzvlərinin olduqca zəngin kolleksiyaları qorunur. Kolleksiyalara daxil olan fotoşəkillər, memorial əşyalar, sənədlər, mükafatlar və digər muzey əşyaları muzeyin Sənədli mənbələr fondu, Hədiyyələr və xatirə əşyaları fondu, Etnoqrafiya və Numizmatika fondlarında qorunur.

Burada AMEA-nın həmtəsisçisi və ilk prezidenti, ilk azərbaycanlı tibb elmləri doktoru və ümumi cərrahiyyə üzrə ana dilimizdə nəşr olunan ilk orijinal dərsliyin müəllifi akademik Mirəsədulla Mirqasımov (1945-1947), Akademiyanın digər prezidentləri — ölkəmizin neft emalı və neft-kimya sənayesinin inkişafında misilsiz xidmətləri olmuş akademik Yusif Məmmədəliyev (1947-1950; 1958-1961), geologiya elminə və neft-qaz komplekslərinin tədqiqinə mühüm töhfələr vermiş akademik Musa Əliyev (1950-1958), Azərbaycanın ilk riyaziyyat elmləri doktoru, funksional analiz məktəbinin yaradıcısı akademik Zahid Xəlilov (1962-1967), Azərbaycanda yarımkeçiricilər fizikası məktəbinin banisi və fizika sahəsində ana dilində ilk elmi kitabın müəllifi akademik Həsən Abdullayev (1970-1983), riyaziyyat və mexanikanın inkişafında böyük xidmətləri olmuş akademik Fərəməz Maqsudova (1997-2000) aid çoxsaylı fotoşəkil, sənəd, mükafat, medal, hədiyyə, memorial əşyalar qorunur.

Tarix Muzeyinin fondlarında Azərbaycan SSR Elmlər Akademiyasının digər həmtəsisçilərindən hidravlika sahəsində görkəmli sovet alimi, mühəndis akademik İosif Yesman, dahi bəstəkar, musiqişünas alim, publisist, maarifçi, Şərqdə ilk operanın yaradıcısı akademik Üzeyir Hacıbəyli, dünya anesteziologiya elmi tarixində ilk dəfə olaraq orijinal keyitmə üsulunu — inyeksion efir-yağ narkozunu — analgeziya üsulunu kəşf etmiş akademik Mustafa Topçubaşov, görkəmli şair, tərcüməçi və ictimai xadim akademik Səməd Vurğun, görkəmli geoloq alim, Geologiya İnstitutunun (indiki Geologiya və Geofizika İnstitutu) təsisçilərindən biri akademik Mirəli Qaşqay, görkəmli filosof alim və ictimai xadim akademik Heydər Hüseynov, Azərbaycanda geologiya elminin inkişafında böyük xidmətləri olmuş Şamil Əzizbəyov, tanınmış geoloq alim, çöl və mədən geologiyası üzrə Azərbaycan dilində ilk dərs vəsaitlərinin müəllifi akademik Ələşrəf Əlizadəyə aid materiallar xüsusi yer tutur.

Muzeyin kolleksiyalarında bir çox digər akademiklərə — görkəmli ədəbiyyatşünas alim, ilk dəfə «Azərbaycan sovet ədəbiyyatı tarixi»ni yazan Məmməd Arif Dadaşzadə, Azərbaycanda neft kimyası elminin banilərindən biri Mark Dalin, Azərbaycanda heyvandarlıq sahəsi üzrə ilk elmlər doktoru Firuz Məlikov, dünya geologiya təcrübəsində ilk dəfə nəşr olunan «Azərbaycanın palçıq vulkanları atlası» (1971) və «Azərbaycanın neftli-qazlı vilayətlərinin palçıq vulkanları xəritəsi»nin (1978) hazırlanmasına rəhbərlik etmiş Əhəd Yaqubov, keçmiş Sovetlər İttifaqında aşqarlar sahəsində yeganə ixtisaslaşmış institut — Aşqarlar Kimyası İnstitutunun yaradıcılarından biri, habelə kinoda çəkilmiş ilk azərbaycanlı qadın İzzət Orucova, Eksperimental fiziologiya laboratoriyasının təşkilatçılarından biri Abdulla Qarayev, Azərbaycanda kənd təsərrüfatının inkişafına böyük töhfələr vermiş, ilk dəfə cinslərarası fertil hibridlər becərmiş, bir sıra buğda, pambıq, çaytikanı sortlarının müəllifi İmam Mustafayev, ilk azərbaycanlı tarix elmləri doktoru İsmayıl Hüseynov və ilk azərbaycanlı qadın tarix elmləri doktoru Püstəxanım Əzizbəyova, dünyaşöhrətli bəstəkar Qara Qarayev, AMEA-nın Sovet İttifaqı Qəhrəmanı adını daşıyan yeganə həqiqi üzvü Ziya Bünyadov, Azərbaycanın qədim tarixi və arxeologiyası, habelə qədim Şərq fəlsəfəsinin görkəmli tədqiqatçısı İqrar Əliyevə məxsus fotoşəkillər, memorial əşyalar və s. materiallar qorunub saxlanılır.

Həmçinin burada biz, azərbaycanlı alimlərlə yanaşı ölkəmizdə elmin inkişafında mühüm rol oynamış əcnəbi alimlərə — ixtiologiya üzrə görkəmli zooloq alim, BDU-nun Zoologiya kafedrasının yaradıcılarından biri və ilk professoru akademik Aleksandr Derjavin, Azərbaycanda geologiya elminin banilərindən biri, ilk dəfə neft yataqlarında suyun paylanması üzrə Palmer sistemini tətbiq etmiş, respublikada bir sıra neft yataqlarının açılmasında yaxından iştirak etmiş akademik Mixail Abramoviç, tanınmış mikoloq, Qafqaz və Azərbaycan üçün elmə məlum olmayan 100-dən artıq yeni göbələk növü aşkar etmiş akademik Valeri Ulyanişevə aid çoxsaylı materiallarla tanış ola bilərik.

AMEA-nın müxbir üzvlərindən isə Azərbaycanda numizmatika məktəbinin təməlini qoyan tanınmış tarixçi Yevgeni Paxomov, ölkəmizdə hüquq elmi və təhsilinin banilərindən, ilk hüquqşünas alimlərdən biri Vahid Qəhrəmanov, Sovet hakimiyyəti dövründə Azərbaycan Dövlət Universitetində Azərbaycan tarixi kafedrasının açılmasına nail olmuş Zülfəli İbrahimov, Azərbaycan musiqi tarixində simfonik muğam janrının yaradıcısı Fikrət Əmirov, Azərbaycan-sovet neft-qaz sənayesi təşkilatçısı, SSRİ qaz sənayesi naziri Sabit Orucov, tarix elmləri doktorları Mahmud İsmayılov və Əlövsət Quliyevə aid materiallar Tarix Muzeyinin kolleksiyalarını zənginləşdirir.

Bundan əlavə, muzeyin fondlarında tanınmış seleksiyaçı genetik, AXC dövründə bu ixtisas üzrə İtaliyaya təhsil almağa göndərilən alim, Azərbaycan SSR Kənd Təsərrüfatı Elmlər Akademiyasının həqiqi üzvü və Rəyasət Heyətinin üzvü Əhməd Rəcəbli ivə Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyasının müxbir üzvü Ağaxan Ağabəyliyə aid materiallar da yer alır.

Maraqlı muzey əşyaları sırasında görkəmli numizmat Yevgeni Paxomovun işlətdiyi alətlər, alim-cərrah akademik Mustafa bəy Topçubaşovun kəşf etdiyi bədəndən kənar cisimlərin çıxarılması üçün cihaz, akademik Yusif Məmmədəliyevin SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçilməsi ilə əlaqədar sənəd, akademik Heydər Hüseynovun «Atəşgah» şeirinin əlyazması, müxbir üzv Sabit Orucova Yaponiyada hədiyyə edilmiş samuray dəbilqəsi, müxbir üzv Fikrət Əmirovun «Sevil» operasının proloqunun əlyazması, tanınmış seleksioner Ağaxan Ağabəyliyə hindli həmkarlarının hədiyyə etdikləri muncuq və pərəklərdən hörülmüş çələng və digərlərini sadalamaq olar.

Qeyd edək ki, 2004-cü ildə AMEA-nın 60 illik yubileyi ərəfəsində MATM tərəfindən «Elmin qızıl fondu» adlı kataloq hazırlanıb nəşr edilmişdi. Həmin kataloqda yuxarıda adları çəkilən 38 həqiqi və müxbir üzv haqqında məlumat və bu alimlərə aid muzeydə qorunub saxlanılan materialların siyahısı yer alır. Alimlərin hər biri Azərbaycanda elmin inkişafına böyük töhfələr vermiş şəxslərdir. Təsadüfi deyil ki, «Ön söz»də kataloqun elmi redaktoru, Tarix muzeyinin direktoru akademik Nailə Vəlixanlı yazır: «Mətnlərdə «istedadlı», «ilk», «tanınmış», «ilk dəfə» sözləri tez-tez təkrar olunur. Bəli, onlar doğrudan da istedadlı idilər, doğrudan da çox şeyi ilk dəfə onlar kəşf etdilər, çox problemi əsərlərində araşdırdılar, istehsalata tətbiq etdilər, adları təkcə Azərbaycanın deyil, müxtəlif ölkələrin elmi ictimaiyyəti arasında tanındı... Bu elm xadimləri öz yetirmələrilə fikir mübadiləsi edir, biliklərini onlardan əsirgəmir, problemlərin həlli yollarını göstərir, bir sözlə, öz sahələrində məktəblər yaradırdılar».

Həmin kataloq tərtib edildən sonra da bir neçə alimə — AMEA Şərqşünaslıq İnstitutunun ilk direktoru akademik Əbdülkərim Əlizadə, neft geologiyası sahəsində tanınmış alim akademik Faiq Bağırzadə, respublikamızda ilk dəfə «Optimal idarəetmənin riyazi əsasları» üzrə elmi seminar təşkil etmiş AMEA-nın müxbir üzvü Qoşqar Əhmədova aid materiallar muzey kolleksiyalarını zənginləşdirib.

Təbii ki, məqalədə MATM-da qorunub saxlanılan xəzinənin yalnız bir hissəsi təqdim olunur. Muzey fəaliyyətinin özünəməxsusluğunu nəzərə alaraq qeyd etməliyik ki, bu məbədlərin kolleksiyaları ilbəil zənginləşir, təkmilləşir, dolğunlaşır. Və bütün bu muzey əşyalarını kiçik yazıya sığışdırmaq mümkün deyil.

Məlumdur ki, muzey fəaliyyətinin mühüm istiqaməti olan toplama işi hər zaman aparılır. Buna görə də Elmlər Akademiyasının indiki həqiqi və müxbir üzvlərinə aid müvafiq materialları, habelə AMEA ilə bağlı fotoşəkilləri, nəşrləri və digər əşyaları muzeyə təhvil verərək AMEA-ya aid ümumi kolleksiyanı zənginləşdirə bilərik.

Akademik Nailə Vəlixanlının «Ön söz»də vurğuladığı kimi, «Milli Elmlər Akademiyası təkcə elmi təfəkkür mərkəzi deyil, həmçinin Azərbaycan alimlər ordusunu yetişdirən ocaqdır». Bəlli məsələdir ki, alim yalnız biliyi, savadı ilə deyil, həmçinin daxili mədəniyyəti, əqidəsi, mərdliyi, şəxsiyyəti ilə fərqlənməlidir. Həqiqi alimlər ordusunun genişlənməsi arzusu ilə, yubileyimiz mübarək!

***Nəzmin CƏFƏROVA,***
**sənətşünaslıq üzrə fəlsəfə doktoru.**